# Lecture 10

## A. Dörd Afina məktəbi

Afinada ilk elm-fəlsəfə məktəbi Platonun başçılıq etdiyi Akademiya, ikinci məktəb Aristotelin təsis etdiyi Liseum idi. Sonra daha iki məktəb-Epikur və Stoa məktəbləri fəaliyyətə başladı.

Platondan sonra Platonun seçimi ilə Akademiyaya onun bacısı oğlu olan filosof **Speusippus** ("-408"-"-339/8) başçılıq etmişdi (scholarch). Aristotel`in bundan incidiyi və Akademiyanı biryolluq tərk etdiyi deyilir. Speusippus`un ölümündən sonra başçılığa üç namizəd irəli sürülmüşdü: Heraklides, Xenocrates və Menedemus. Cüzi səs çoxluğu ilə **Ksenokrates** (Xalkedonlu filosof; Chalkedon - indiki Kadıköy, İstanbul) başçı olmuş, bu vəzifəni təqribən 25 il daşımışdır ("-339/8"-"-314/3"). Ksenokrates Platon təlimini sistemləşdirmək üçün çalışmışdı.Bu hər iki başçı əsasən Platonun görüşlərini müdafiə edir, o cümlədən onun İdeyalarını riyazi obrazlarla ifadə etməyə çalışırdılar. Ksenokrates kainatı Ay-altı, Göy və Göy-üstü kimi üç hissəyə ayırır, sakinlər arasında xeyir və şər ilahi varlıqlar`ın (daimon) olduğunu vurğulayırdı.Ksenokrates`in tələbəsi **Poleman** Akademiyanın növbəti və uzun müddətli başçısı oldu ("-314/3"-"-270/269"). O, mücərrəd (metafizik) fəlsəfədən daha çox praktik, əxlaq fəlsəfəsinə maraq göstərirmiş (Laertli Diogenes).Akademiyanın başçısı olaraq Poleman`ı (ölümündən sonra) onun tələbəsi Afinalı **Krates** əvəz etdi (ölümü "-268/264?). Krates`in başçılıq fəaliyyəti o qədər də uzun sürməmişdi; Poleman`ın xəttini davam etdirdiyi güman olunur. Bu dövr Akademiya başçıları elmə və ya fəlsəfəyə ciddi töhfə vermiş şəxslər dyildi. Bu dövr Platon ideyalarının inkişafı ilə deyil, Epikurçuluq və Stoaçılıqla aparılan mübahisə və münaqişə ilə səciyyələndirilə bilər.

Platon Akademiyasında çalışan məşhurların heç də hamısı başçı (skolarx) olmayıb, məsələn, Aristotel, Evdokus (Eudoxus), Heraklides, Opuslu Filip (Philip), Krantor (Crantor),...

"-264"-də **Arkesilaos**/Arcesilaus ( "-316/5"-"-241/0") Akademiyanın yeni - Orta Akademiya və ya İkinci Akademiya adlandırılan dövrünün başçısı oldu. O, skeptisizmi (şübhəçiliyi) əsas proqrama çevirdi, Platonizmin skeptik dövrü və ya **Akademik skeptisizm** dövrü başlandı (iki əsrə yaxın). Bu dövr

Liseum/Likey Aristotelin başçısı olduğu peripatetik məktəbini inkişaf etdirdi. Aristotelin ölümündən sonra **Theophrastus** (-371, -286/7) uzun

müddət, 36/37 il ərzində Liseum`un başçısı oldu (adı əslində ona verilmiş ləqəbdir, mənası "İlahi nitqə malik" deməkdir). Böyük nüfuz sahibi bu şəxsin mühazirələri çox populyar olub, çox tələbə cəlb edib. Onun çoxsaylı yazılarından (qeyri-adi dərəcədə məhsuldar olub, Laertli Diogenes onun 227 kitab yazdığını deyir) yalnız botanika (2) və mineralogiya/geologiya (1) üzrə əsərləri qalıb("Xarakterlər" Afina sakinləri tiplərinin təsviri?!). Bu əsərlər Aristotel ideyaları, o cümlədən geniş təsvir və təsnifat cəhdi üzərində qurulub; bəzi məsələlərdə isə o, Aristotellə razı olmadığını göstərir. Theophrastus`u "Botanikanın Atası" da adlandırırlar. O, Aristotelin zoologiyada gördüyü işlərə bənzər şəkildə botanika üzrə araşdırmalar aparmış, 500 növ ətrafında bitkinin təsvirini vermişdi (Aristotelin də botanika sahəsindəəsəri olubmuş, lakin itmiş sayılır). O, bitki və aqrar iş əlaqəsini, bitkilərin insan ehtiyaclarına görə yetişdirilməsi, həmçinin bitkilərin böyüməsi və çoxalması, çiçək quruluşu kimi məsələri tədqiq və şərh etmişdir. Theofrastus hava haqqında öncədən məlumat vermə üzrə "İşarələr kitabı" adlı əsər yazmış, yağış, külək, tufan, yaxşı hava və bu kimi hadisələrin baş verəcəyini göstərən təqribən 200 əlaməti təsvir etməyə çalışmışdı. Bu kitab iki min ilə yaxın bir dövr ərzində populyar olmuşdur. Theofrastusun aşağıdakı cümləsi məşhurdur (və bir çox hallarda özünü doğruldur): axşama yaxın külək əsirsə, dənizçi heç nədən qorxmaz, əgər külək səhər əsirsə, dənizçinin döşünə yatmaz (К.С. Лосев. Климат: Вчера, сегодня… и завтра. Лениниград, Гидрометеоиздат, 1985; səh. 4-6).Feofrastus dövründə Afina vətəndaş savaşı məkanına çevrilmiş, müstəqillyini və gücünü itirməkdə idi, elmi mühit zəifləməyə başlamışdı.

Theophrastus`un tələbələri arasında Phalerum/n`lu **Demetrius** da vardı (onun Lyseum`da müəyyən vaxt keçirdiyi deyilir). Bu görkəmli siyasətçi, dövlət xadimi (Afina hökumət başçısı olmuşdu) və yaradıcı şəxs böyük nüfuz qazanmış, xidmət etmiş, islahatlar aparmışdır. Siyasi səbəbdən Afinanı tərk edib Aleksandriyaya getmiş, orada xeyli yaşamış, Ptolomey Soterin müşaviri olmuş, sonunda yenə siyasi səbəbdən oranı tərk edib Afinaya qayıtmışdı. Theophrastus`un ölümündən sonra onun tələbəsi **Strato/Straton** (Lampsacus`lu; Hellespontdakı) Liseum böyüklərinin iştirak etdiyi seçki ilə başçıtəyin olundu və 18 il (-286, -268) bu vəzifəni daşıdı. Aristotel məktəbində dərs aldıqdan sonra Aleksandriyaya getmiş, Ptolomey`ə (və Samoslu Aristarxa) dərs demişdi. Theoprastus öləndə Afinaya qayıtmış və Likey`ə başçılıq etmişdi. Straton əsasən Aristotel fizikasını inkişaf etdirməklə yadda qalıb, bir neçə məsələdə (hərəkət, təcil, məkan) Aristoteldən fərqli nəticələrə gəlib. Məsələn, aşağı düşən cisimlərin təcil alması/sürətinin artmasını müşahidə etmişdir (Simplicius bunu belə

şərh edir: yüksək damdan aşağı tökülən suyumüşahidə edəndə yuxarıda axın bütöv, arasıkəsilməz görünür, aşağıda isə kəsik-kəsik hissələrə ayrılır. Su aşağı getdikcə sürəti artmasaydı belə olmazdı). Stratonun adına sonrakı nəsillərdə “Fizik” ləqəbi əlavə etmişdilər (Laertli Diogenes). Straton 2-ci Ptolomey`ə (Filadelfus) dərs deyib. Straton`dan sonra Lyseum zəiflədi, onun yaradıcı gücü çox aşağı endi, sanki olanları qorumaqla məşğul idi (?!). Platon Akademiyası, o cümlədən sonrakı dövrdə geniş yayılan neoplatonik məktəb, eləcə də Stoisizm və Epikurçuluq daha canlı, çağdaş və yaradıcı məktəblər idi. Digər tərəfdən Neoplatonik məktəb Aristoteli Platonla yanaşı öyrənir, Aristotelə şərhlər yazırdılar.

**Rodoslu Eudemus** (?“-370”-?“-300”) Aristotelin istedadlı tələbələrindən biri olub (Theophrastusdan sonra ikinci?). Aristotelin bir sıra əsərlərini redaktə edib, onları başa düşülən oxunaqlı hala salıb. Aristotelin təklifi ilə elm tarixinə aid əsərlər yazıb (hesab tarixi, həndəsə tarixi, astronomiya tarixi). Bu əsərlər qalmamış, lakin sonrakı alimlərin əsərlərindəonlardan mühüm alıntılar edilmiş və bu yolla bu günə gəlib çıxmışdır. Aristotel ölümündən əvvəl Theofrastusu Lyseum`un başçısı təyin etmiş, Eudemus Lyseumu tərk edib öz vətəninə qayıtmış və orada öz məktəbini açmışdı. Teofrastus və Eudemus`u Aristotelin tələbələri deyil, yoldaşları, həmkarları adlandırmışlar.

Rodoslu Eudemus`la yanaşı Tarentli (?) **Aristoxenus`**un (musiqi nəzəriyyəsi və təcrübəsi, fəlsəfə) Aristotel`in istedadlı tələbəsi kimi Likey`ə başçı təyin olunmaq iddiası olduğu və bu baş vermədikdə qəlb rahatsızlığı keçirdiyi deyilir. Aristoxenus`un 453 əsəri varmış; Bu günə yalnız “Harmoniyanın elementləri” əsərinin bir hissəsi və musiqi haqqında bəzi fraqmentlər gəlib çatmışdır. Aristoxenus`a görə eşitmə qabiliyyəti əsasdır, Pifaqorun riyazi intervalları üzərində qurulan hesablar deyil.

Epikuros (-342/-341, -271/-270) təqribən (-307/6)-ci illərdə Afinada Platon Akademiyası yaxınlığında, Melite adlanan yerdə ev və bağ almış, bu bağda öz məktəbini yerləşdirmişdi. Bu səbəbdən Epikuros məktəbini sadəcə “Bağ” adlandırmışdılar.

Stoa məktəbi`nin banisi Kitiumlu (Kıprıs adası) Zeno(n) dur (-?334, -270/261) Epikuros`un müasiridir.O, Afinanın şimal hissəsində toplantı (bazar) məkanında (Aqora`da) öz məktəbini açmışdı (-300-cü il ərtafında). Epikuros və Stoa məktəbləri bir-birinə yaxın illərdə fəaliyyətə başlamışdılar. Stoa məktəbi Platon Akademiyası ilə Aristotel Liseumu arasında (Epikurus Bağı ilə Liseum arasında) yerləşirdi.

# 4 AFİNA MƏKTƏBİ



## B. Ptolomeylər. Aleksandriya Akademiyası

B.e.ə. 3-cü əsrdə Yunanıstan öz zəka liderliyini itirmişdi. Yunanıstandan (Hellin dövründən və ya Klassik dövrdən)sonra Antik dünyada, Hellenistik (Ellinistik) dövrdə riyaziyyat və astronomiya, biologiya və tibb, mühəndislik, fəlsəfə və filologiya, fizika və kimya, coğrafiya və tarixin, mühəndislik, filologiya və kitabxana işinin, fəlsəfə və ilahiyyatın, tərcümə və mətnşünaslığın inkişafında Aleksandriya məktəbi həlledici rol oynamışdı. Fəlsəfə öz zirvəsinə Afina dövründə, elm isə Aleksandriya dövründə qovuşdu. Daha doğrusu, bu dövrdə elm daha sürətli, təbii inkişaf yoluna qədəm qoydu. Elmlər sistemli şəklə salındı (Evklid, Arximed, Ptolomey, Strabon-coğrafiya). Əsas elmi mərkəz isə Aleksandriyada yerləşən və Ptolomey sülaləsinin himayəsində fəaliyyət göstərən **Aleksandriya Mouseion`u** və Aleksandriya kitabxanası idi. Şərq və Qərbi birləşdirən Makedoniyalı Isgəndər "-322"-ci ildə (ölümündən 1 il əvvəl) Nil çayı deltasında Aleksandriya şəhərininəsasını qoydu. Aleksandriya qədim dünyanın iqtisadi və ticari cəhətdən ən böyük mərkəzlərindən olmaqla zəka gücündə də ən böyüklərdən idi (Çin xaricində qalan dünyada xeyli müddət birinci və bənzərsiz olmuşdur). O zaman "bütün yollar Aleksandriyaya gedirdi" deyə bilərik. Burada sanki Yunan elmi-rasional düşüncəsi, mücərrəd nəzəri yanaşması ilə Misir (və Babilistan və digər şərq) elmi və praktik sənətləri (tibb, astronomiya, dini-fəlsəfi baxışlar,...) birləşmişdi. Makedoniyalı Aleksandrın ölümü ilə onun imperiyasının parçalanması başlanıldı. İmperiyanın yerində əmələ gələn qüvvələrdən ikisi seçildi: Mərkəzi Misirdə olan Ptolomeylər sülaləsi (3 əsrə yaxın davam etdi), mərkəzi Suriyada olan və Asiyada yerləşən Selevkidlər (Seleucus) sülaləsi. Üçüncü dövlət-Perqamon Kiçik Asiyanın şimal-qərbində və qismən də Avropa yaxasında yerləşmişdi. Və Makedoniya ilə birlikdə Yunanıstan öz yerində idi. Hind, Persiya, Orta Asiya kimi yerlərlə tanışlıq yunan düşüncəsinə bir genişlik və çeviklik gətirdi. İqtisadi-ticari fəaliyyət genişləndi və siyasi-mədəni-intellektual həyata təsir etdi. Yunanıstanın özü Afina istisna olmaqla zəiflədi, zəka gücünü, demək olar ki, itirdi.

Mouseion (Musaeum) muzaların (ilham pərilərinin) məbədi, pənahgahı, sığınağı deməkdir. **Muzey sözü** məhz bu Museion`dan əmələ gəlib. Böyük ehtimalla Makedoniyalı Aleksandrın uşaqlıq dostu və ən etibarlı sərkərdələrindən biri(və bioqrafı!), satrap, Misir/Hellen dünyası Ptolomey hökmdarlar sülaləsinin banisi, Ptolomey Soter (Xilaskar/Savior) adı ilə tanınan 1-ci Ptolomey ([-367]-[-283]) tərəfindən təsis edildiyi deyilir (hakimiyyəti:[-323]-[-283], "-305"-də özünü müstəqil hökmdar elan etdi).

1-ci Ptolomey Makedoniyalı kübar xanım Arsinoë`nin oğludur, atası tam bilinmir, hətta 2-ci Filip`in oğlu ola biləcəyi variantı da var - yəni Aleksandrın anaayrı qardaşı?! Bunun sonradan geniş hakimiyyət iddiasına əsas kimi uydurulması ehtimalı böyükdür. Hər halda, o, Aleksandrın uşaqlıq dostu olmuş, onun ən yaxın adamı sayılmış, cangüdəni, məsləhətçisi, istedadlı sərkərdəsi olmuşdur. Çoxsaylı arvadlardan olan çoxsaylı qızlarını siyasi məqsədlə müxtəlif hökmdarlara ərə vermişdi. [-285]-də oğlunu -2-ci Ptolomey`i hökmdar (ortaq hökmdar elan etdi).

Mouseion`un təsisini bəzən Ptolomey Soter`in oğlu və davamçısı 2-ci Ptolomey`ə də (hakimiyyəti: [-283]-[-246]) aid edirlər. Hər halda 2-ci Ptolomeyin Mouseion`u güclü inkişaf etdirdiyi məlumdur. Aleksandriyada elm və sənət dövlətin (geniş miqyasda ilk dəfə) birbaşa dəstəyi ilə inkişaf etmiş, irəliləmişdir.

Mouseion çoxcəhətli elm və sənət kompleksi idi (Strabon Museion`un saray komleksində yerləşdiyini deyir). Burada çalışan alimlər yüksək maaş alır, vergi vermir, ev və qulluqçularla təmin olunurdular (əlbəttə, alimlərin həyatını ideallaşdırmaq olmaz, onların başına bəla da gəlirdi –çox zaman dilləri ucbatından). Min nəfərdən artıq Museion üzvləri və əməkdaşlar maaş alırdı! Burada antik dünyanın ən zəngin kitabxanası – **Aleksandriya kitabxanası** (yəni kitabxana Museion`un tərkibində, onun ən qiymətli hissəsi idi!?), mühazirə zalları, bir arada yaşayan Mouseion üzvləri üçün evlər, teatr, bioloji-tibbi tədqiqat və astronomik müşahidə yerləri, geniş bağ (botanika və zoologiya bağı!?) hamısı bir yerdə bugünkü universitet kampusunun bənzəri sayıla bilər. Museion və kitabxanada çalışanlar vergilərdən azad idi. Burada elm adamları arasında qadınlar yoxdu. Museion`un daha öncə mövcud olduğu, Aristotel Likeion`nunun təsiri altında fəaliyyətə başladığı da söylənilir (və bu, heç də əsassız deyil). Burada təbiətşünaslar, filosoflar və filoloqlar yan-yanaşı çalışırdılar. Hərçənd ki, sonralar öz fəlsəfi (və filoloji)yönünə görə Museion Platon Akademiyasına daha çox bənzəmişdi.Məqsəd Aleksandriyanı Hellenistik dünyanın elmi-mədəni mərkəzinə çevirmək idi; məhz bu səbəbdən nüfuzlu Aristotel peripatetik məktəbini burada davam etdirmək, Aristotelin kitabxanasını bura köçürmək məqsədi qoyulmuşdu. Aristotel kitabxanasının bir qismi gətirildi (belə güman edilir), lakin bura peripatetik məktəbin davamı sayılmadı, əslində daha orijinal və geniş elm və sənət ocağına çevrildi. Lampsakuslu Straton (“fizik”) “-300”-ətrafında Ptolomey sülaləsinin gələcək davamçısı 2-ci Ptolomeyin təhsili üçün Aleksandriyaya dəvət edilmiş, “-288”-ə qədər burada qalmışdı.(Teofrastın dəvət edildiyi və nə səbəb görə isə gəlmdiyi deyilir). Afina şəhəri hökumət başçısı olmuş Faleronlu Dimitrios qaçmağa məcbur olmuş, 1-ci Ptolomey ona sığınacaq vermişdi (“-307”). Aristotel Liseum`unda oxumuş Dimitrios Aleksandriya kitabxanasının qurulmasında böyük

rol oynamış, hökmdarın ona verdiyi geniş səlahiyyətdən istifadə edərək dünyanın hər tərəfindən mümkün olan kitabları gətirtmişdir. Homer dövründən başlamış bütün yunan əsərlərini yığmağa çalışdılar. Baş Kitabxanaçı`nı və ya Kitabxanaçı`nı hökmdar (Prolomeylər) təyin edirdi. Dimitrios`un ilk baş kitabxanaçı olduğu və bu vəzifəni "-284"-ə qədər daşıdığı deyilir (Straton`dan sonra da bir müddət Aleksandriyada qalmışdı). Aristotel və Feofrastın kitablarının 2-ci Ptolomey tərəfindən Aleksandriyaya gətirildiyini deyirlər. Qalen Aleksandriya yaxınlığından keçən bütün gəmilərdə olan kitablar gömrükçülər tərəfindən alınır, ən yaxşı halda surətləri çıxardılıb sahibinə qaytarılırdı. Orijinal nüsxələr "Gəmilərdən" adı ilə kataloqlaşdırılırdı.

> 2-ci Ptolomey öz bacısı ilə evlənmişdi, daha doğrusu, Makedoniya saray intriqalarında bişmiş olan doğma bacısı Arsinoë üçüncü ər olaraq hakimiyyətdə olan özündən 8 yaş kiçik qardaşını seçmişdi. O, qardaşının mövcud arvadı 1-ci Arsinoë`ni 1-ci Ptolomeyə qəsd hazırlamaqda suçlandırıb öldürtdürmüş, 2-ci Arsinoë kimi böyük nüfuza sahib olmuş, hakimiyyəti qardaşı-əri ilə ortaq idarə etmişdi.Misirdə, xüsusən Faraonlarda qəbul edilmiş bu cür evlənmə yunanları heyrətə gətirmişdi. Bu barədə yazan şair Sotad həbs edilmiş, qaçmış, tutulub öldürülmüşdü. "Filadelfiya"–qardaşını/bacısını sevən deməkdir. 2-ci Ptolomey öz valideynlərini və bacısı-arvadını ölümlərindən sonra ilahiləşdirmişdi (uyğun qayda və mərasimlə). 2-ci Ptolomey çeşidli vəhşi heyvanlardan ibarət zoopark qurmuşdu.

3-cü Ptolomey Aleksandriyada,Serapis məbədində daha bir kitabxana və ya böyük kitabxananın filialını – Serapeum və ya Serapeion`u da qurmuş, artan kitabların daha əlverişli şəraitdə yerləşməsini təmin etmişdi.

Burada bir sıra sahələr üzrə mühazirələr oxunduğu məlumdur. Aleksandriya kitabxanasında lülələnmiş papirus kitabların nə qədər olduğu məlum deyil, müxtəlif rəqəmlər arasında tədqiqatçılar 400 minlə 700 min arasında dayanırlar (eyni dərəcədə elm-sənət himayəçisi olan 3-cü Ptolomey hakimiyyəti zamanı). Kitabxananın kataloqu 120 kitabdan ibarət imiş. Daxil olan xarici kitablar yunancaya tərcümə edilirdi. Kitab rəflərinin üstündə, divarda "ruhun müalicə olunduğu yer" yazıldığı söylənilir. "Dünyanın yeddi möcüzəsi"nə aid müxtəlif fikirlər vardı, Aleksandriya kitabxanasını da bu siyahıya daxil edənlər olub (məsələn, Foros mayağı əvəzinə). Hündürlüyü 100 metrdən artıq olan Faros mayağı (Faros adasında) Aleksandriya körfəzində 2-ci Ptolomey dövründə tikilmişdi. Başında yanan alov gəmilərin uzaqdan görməsi üçün güzgü vasitəsilə dəniz tərəfə yönləndirilirdi.

## C. Aleksandriya: Kitabxana işi. Filoloji mərkəz. Əlkimya. Tibb.

Məşhur filoloqlardan (bəziləri şair, yazıçı) Zenodotus (b.e.ə. 3-cü əsr; “-283”-“-245”?), Kirenli Kallimaxus (b.e.ə. 3-cü əsr), onun tələbəsi Rodoslu Apollonius (b.e.ə. 3-cü əsrin 1-ci yarısı), Somofrakiyalı Aristarxus (?“-216”-?“-144”), Bizanslı Aristophanes (“-257”-“-180/85”) və digərlərinin burada çalışdığı məlumdur. Eratosfen və yuxarıda adları çəkilən 4 filoloq (R. Apollonius istisna olmaqla) baş kitabxanaçı olublar (Kallimaxus şübhəlidir). Zenodotusun başladığı kitabxananın elmi təşkili işini Kallimaxus davam etdirmiş, külli miqdarda kitabların (120 min!?) müəllif və mövzu üzrə təsnifatını vermiş, nəhəng kataloq sistemi hazırlamışdı. Bəzi qaynaqlar Rodoslu Apollonius`un “-270”-də kitabxanaçı təyin edildiyini və onun dövründə Arximedes`in Aleksandriyaya gəldiyini  deyirlər. Sonra “-235”-də Eratosfen kitabxanaçı oldu (ölümünə qədər). Onun Evdoksu, Evklidin ən istedadlı tələbəsini öz yanına dəvət etdiyi deyilir. İşçilər arasında tərcüməçilər sayca çoxluq təşkil edirdilər. Eratosfeni Bizanslı Aristofanes əvəz etdi. Qeydə keçmiş son kitabxanaçı (“-175”) 7-ci Ptolomey dövründə Samofrakiya`lı Aristarxus olmuşdur (Bizanslı Arisofanes`i əvəz etmişdi?!); o, Homerçi filoloq olub, Homer əsərlərinin standartlaşdırılmış mətni əsasən onun işi olaraq qəbul edilir. Son dövrlərdə təbiət elmləri və riyaziyyat üzrə araşdırmalar çox zəifləmiş, yunan ədəbiyyatı, redaktə işi və başqa dillərdən tərcümələr əsas fəaliyyət meydanı olmuşdur.

**Aleksandriya filologiya mərkəzi**nə çevrildi. Eratosfen filoloq olmayan yeganə baş kitabxanaçı olub! Bir sıra yunan mif və əfsanələri yazıya alınır, onlar şərh edilir, yunan ədəbiyyatı öyrənilirdi. Burada ədəbi tənqid və mətnşünaslıq elmləri əmələ gəlirdi. Homer, eləcə də Hesiodun əsərlərinin toplanması, qaydaya salınması, redaktə edilib kanonik versiyalarının hazırlanması məhz burada baş vermişdi. Aristofan, Sofokl, Evripid, Esxil, Platon, Pindar kimi şair, dramaturq və filosofların əsərləri də burada tədqiq olunmuş, tənqidi mətnlər hazırlanmışdır. Aleksandriya filoloqları yunan ədəbi mətnlərini oxuna bilən hala gətirdilər. 2-ci Ptolomey dövründə Bibliya, daha doğrusu “Əhdi-ətiq” (“Köhnə saziş”/Ветхий Завет) ibranicədən yunancaya burada tərcümə edilmişdi (Septuagint). Aleksandriyada güclü və böyük **yəhudi icması** olub, deyilənə görə 1-ci əsrin əvvəllərində bu icma şəhər əhalisinin təqribən 2/5-ni təşkil etmişdir. -2-ci Ptolomey`in tapşırığı ilə başlanıldığı deyilən bu tərcümə (ibrani`cədən yunancaya) və tərtib işi [-132]-ci ildə bitdi. Bu mətnə 5-ci əsrdən başlayaraq latınca Septuagint deyilir; Septuaginta interpretum 70 şəxsin tərcüməsi deməkdir (bu tərcümə işi üçün 70 adam ayrılıbmış, 72 deyənlər də olub).

**Aleksandriyada əlkimya məktəbi** də fəaliyyət göstərirdi, onun üzvləri arasında qadınlar da vardı. Aleksandriyalı Klement əfsanəvi Misir-yunan simbiozu olan (Misir allahı Thoth, yunan allahı Hermes) Hermes Trismegestus`un (üçqat güclü Hermes) adı ilə bağlanmış və möcüzəli tərəfləri ilə cəlb edən kimya (əlkimya) və astrologiya, eləcə də fəlsəfə və tibb haqqında məlumatlar küllisi - Hermeticum Corpusu`ndan ətraflı söhbət açmışdı ("Stromata" adlı əsərində).

B.e.ə. 3-cü əsrdə **Herophilos**və onun tələbəsi sayılan **Erusistratus** kimi həkim və bioloqlar Aleksandriyanı anatomiya və tibb məktəbi kimi məşhurlaşdırdılar. Herofilus hiss üzvləri arasındakı, həmçinin müəyyən dərəcədə vena və arteriya arasındakı fərqləri vurğulamış, müxtəlif orqanların təsvirini vermişdi.Erasistratus beynin böyük (yarımkürə) və kiçik hissəyə (beyincik) ayrılmasını anlamış, beyindəki qırışların zəka ilə əlaqəli olduğunu düşünmüş, insan beyninin heyvanların beynindən böyük olduğunu demişdi.

1-ci əsrdə yaşamış Anazarbus`lu (Kilikiyalı) **Pedanius Dioscorides** (?40-?90) Aleksandriyada oxuyub təlim görmüş, imperatorlar Neron`un hakimiyyəti dövründə (54-68) Roma ordusunda həkimlik etdiyi məlumdur. 1000-ə yaxın dərman və 600 ətrafında tibbi əhəmiyyəti olan bitkilərin təsvirini vermiş ensiklopedik "Tibbi materiallar haqqında" (yunanca yazılmış, ərəbcəyə və latıncaya çevrilmiş bu əsər indi daha çox latınca "De Materia Medica" adı ilə tanınır) əsəri ilə Dioscorides farmakologiyanın banisi sayılır.

Aleksandriya, sözsüz ki, uzun müddət dünya elmi fikrinin mərkəzi idi. Deyilənə görə Romada Yulian təqviminin qəbul edilməsində Aleksandriya astronomlarının fikri mühüm rol oynamışdı. Aleksandriya ədəbiyyatı da Roma ədəbiyyatına ciddi təsir göstərdi.